# Dövlətin gələcək hədəflərini göstərən yol xəritəsi

## Prezident qarşıdakı dövr üçün yeni inkişaf istiqamətlərini müəyyən etdi

**"Prezident İlham Əliyevin yürütdüyü siyasi kurs nəinki dövlətimiz, eləcə də bəşəriyyət üçün əhəmiyyətli və nümunədir. Çünki bu siyasət sülhə, demokratiyaya, ölkələrin suverenliyinə, haqqa, ədalətə, qarşılıqlı əməkdaşlığa, sağlam münasibətlərə arxalanır".**



Bu sözləri "Azərbaycan" qəzetinə Milli Məclisin Aqrar siyasət komitəsinin sədri Tahir Rzayev deyib. Deputat bildirib ki, COP29-un keçirildiyi günlərdə dövlət başçısının kiçik ada dövlətlərinə və imkansız ölkələrə yardım etmək və bu dövlətlərin müstəqilliyi ilə bağlı çağırışları dünyada böyük əks-səda yaratdı. Dövlət başçısı bu təşəbbüsləri müəyyən qədər reallığa çevirə bildi. Bu reallıqların təməlində xalqlara, dövlətlərə hörmət, istiqlal, müharibəsiz, münaqişəsiz dünya, aydın gələcək durur. Prezident İlham Əliyev bütün təşəbbüslərində beynəlxalq hüququn norma və prinsiplərinə arxalanır, onları örnək seçir və hər bir fikrini reallıqlara söykənən faktlarla izah edir. Dövlət başçısı çıxışlarında müasir dünyanın aydın tablosunu yaradır. Bu tabloda ədalətsizliklər, neokolonializm, müstəqillik qazanan kiçik dövlətlərə təhdidlər, irqçilik, müsəlman dünyasına kəskin nifrət, beynəlxalq hüquqa saygısızlıq, müharibələrin qızışdırılmasına göstərilən cəhdlər, təcavüzkar ölkələrin silahlandırılması, inkişafda olan ölkələrin iqtisadiyyatının məhvinə yönəldilən səylər və digər niyyətlər yer tutur. "Prezident İlham Əliyev bu halları, mənfur niyyətləri açıq deməkdən çəkinmir, çünki buna haqqı var. Bir dövlət başçısı kimi dünyanın siyasi mənzərəsini yaratmasaydı, bəzi böyük dövlətlərin rəhbərlərinin bəşəriyyətə, insanlığa zidd əməllərini açıb göstərməsəydi, Azərbaycan Prezidenti qalib dövlətin başçısı ola bilməz və dünya siyasətçiləri sırasında öndə dayanmazdı. İlham Əliyevə bu gün dünyada nüfuzlu rəhbər kimi şöhrət qazandıran, onu xalqların gözündə ucaldan qətiyyətidir, elmidir, müdrikliyidir, siyasi iradəsidir, xalqlara ehtiramıdır. Ərazi cəhətdən kiçik, ancaq amalda, əməldə, mübarizədə çox böyük olan dövlətimiz var. Prezident İlham Əliyev sülh çağırışları etdiyi halda adlarını demokrat, sülh tərəfdarı qoyan bəzi riyakar dövlət rəsmiləri Rusiya-Ukrayna müharibəsini daha da qızışdırır, Ermənistanı silahlandırır, Gürcüstanda dövlət çevrilişinə cəhdlər göstərir, milyonlarla insanın qətlinə fərman verirlər", - deyə T.Rzayev əlavə edib.

Komitə sədri qeyd edib ki, Prezident İlham Əliyevin bu günlərdə yerli televiziya kanallarına verdiyi müsahibə və səsləndirdiyi fikirlər bir daha sübut edir ki, o, demokrat və sülhsevər dövlət rəhbərlərindən birincisidir. Bu müsahibədə həm görünən, həm də bir çox gizli məqamlara aydınlıq gətirilib. Prezident İlham Əliyev ölkə vətəndaşını düşündürən, maraqlandıran, dünya dövlətlərini və xalqlarını narahat edən məsələlərə münasibətini bildirərək, real faktları ortaya qoyub. Adlarını demokratik dövlət qoyan bəzi ölkələrin siyasətçilərinin məkrli gedişləri ucbatından bəzi xalqlar ağır bəlalara düçar edilib. Azərbaycan belə saxta demokratların iç üzünü ifşa edir.

Deputat vurğulayıb ki, Azərbaycan bu gün sürətli inkişaf edən ölkədir. İqtisadiyyatı son ildə 4 faizdən çox, qeyri-neft sektoru 6 faizdən çox, qeyri-neft sənaye istehsalı 7 dəfədən çox, valyuta ehtiyatlarımız bir ildə 5 milyard dollardan çox artaraq 72 milyard dollara çatması, büdcə xərclərinin 41 milyard manatdan çox olması, icmal büdcənin 48 milyard manata yüksəlməsi, minumum əməkhaqları və pensiyaların 14-15 faiz artırılması, büdcə xərclərinin 41 faizinin sosialyönümlü xərclərə yönəldilməsi, valyuta ehtiyatlarının xarici borcumuzu 14 dəfə üstələməsi, Azərbaycanın D-8-ə qəbul edilməsi, COP29 kimi dünya əhəmiyyətli tədbirin bir çox təsirlərə və təhdidlərə baxmayaraq, uğurla keçirilməsi reallıqdır. Əlbəttə, bu reallıqların arxasında davamlı iqtisadiyyatımızın təmin olunmasında, dövlətimizin beynəlxalq aləmdə böyük nüfuz qazanmasında, aşkarlığın, investisiya mühitinin formalaşmasında, sahibkarlığın inkişafına önəm verilməsində Prezident İlham Əliyevin gərgin zəhməti, gələcəyə istiqamətlənən layihələri durur.

T.Rzayev vurğulayıb ki, Prezident İlham Əliyev həmişə olduğu kimi, bu gün də ordu quruculuğunu möhkəmləndirməyi, milli təhlükəsizliyimizi gücləndirməyi, hərbi qüdrətimizi artırmağı, işğaldan azad olunmuş ərazilərdə bərpa, quruculuq işlərinin sürətləndirilməsini birinci dərəcəli vəzifə kimi qarşıya qoyub: "Dövlət rəhbəri bildirib ki, Qarabağ və Şərqi Zəngəzurun bərpasına 4 milyard manat, hərbi və təhlükəsizlik məsələlərinə 8,4 milyard manat vəsait xərcləyəcəyik. Bu tam fərqli ola bilərdi. Ermənistanın silahlanma yarışı bizim maliyyə resurslarımızı əsas məsələlərdən başqa hərbi məsələlərə cəlb etməyə vadar edir. Ermənistanın Fransa, ABŞ, Avropa İttifaqı tərəfindən dəstəklənməsinə və silahlandırılmasına cənab İlham Əliyevin kəskin etirazı başadüşüləndir. Çünki Qərb Cənubi Qafqazda möhkəmlənmək və müəyyən səlahiyyətlər qazanmaq üçün Ermənistandan bir vasitə kimi istifadə edir. Prezident İlham Əliyevin bildirdiyi kimi, Ermənistanın ilk üç rəhbəri faşist ideologiyasının daşıyıcılarıdır. Belə bir faşist dövlətlə qonşuyuq və faşizm təhlükəsi sovuşmur. Bunu ya Ermənistan rəhbərliyi məhv edəcək, ya da biz məhv etməliyik. Bizim başqa çarəmiz yoxdur. Dövlət başçısı bu dəfə də dünyaya kəskin mesajlarını çatdırdı. Minsk qrupu ləğv edilməli, Ermənistan konstitusiyası dəyişdirilməli, Zəngəzur dəhlizi açılmalıdır".

Deputat qeyd edib ki, ölkə rəhbərinin yerli televiziya kanallarına müsahibəsi son illərdə görülən mühüm işlərin, atılan uğurlu addımların, qazanılan parlaq qələbənin hesabatı olmaqla bərabər, həm də günün reallıqlarını özündə əks etdirən, dövlətimizin gələcək vəzifəsini göstərən yol xəritəsidir.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

Azərbaycan.- 2025.- 11 yanvar (№5).- S. 6.